“Vecon Consulting” MMC-nin İSO 9001:2015, İSO 37001:2025, ESG və İSO 45001:2018 standartlarının tələblərinin əsasında İnteqrəedilmiş Sistemi (İMS) tətbiq edilmişdir.

İMS üzrə siyasət müəssisənin məqsədlərinə, kontekstinə uyğundur və müəssisənin strateji istiqamətini dəstəkləyir.

**İMS üzrə Siyasətin əhatə dairəsinə müəssisənin aşağıdakı fəaliyyətləri daxildir:**

1. Qiymətləndirmə fəaliyyətləri:

   - daşınmaz əmlak (torpaq sahələri, yaşayış və qeyri-yaşayış binaları, tikililər və digər daşınmaz əmlak obyektləri);
   - maşın və avadanlıqlar, istehsal xətləri və texniki qurğular;
   - nəqliyyat vasitələri və digər hərəkətli əmlak;
   - biznes, müəssisələr və korporativ hüquqlar;
     səhmlər, paylar və digər kapital alətləri;
   - maliyyə aktivləri və maliyyə alətləri;
   - qeyri-maddi aktivlər (ticarət nişanları, patentlər, müəllif hüquqları, proqram təminatı və digər intellektual mülkiyyət obyektləri);
   - investisiya layihələri və aktiv portfelləri;
   - lizinq və icarə hüquqları;
   - istifadə hüquqları və digər iqtisadi maraqlar;
   - dövlət və bələdiyyə mülkiyyətində olan aktivlər;
   - girov və təminat məqsədilə qiymətləndirilən aktivlər;
   - maliyyə hesabatları və investisiya qərarları üçün qiymətləndirilən aktivlər.

2. Təlim xidmətlərinin həyata keçirilməsi
3. İdarəetmə sistemləri sahəsində məsləhət xidmətləri

**Müəssisənin maraqlı tərəflərə dair öhdəlikləri aşağıdakı kimidir:**

1. *Nəqliyyat istifadəçiləri:*
   a. Qiymətləndirmə və təlim xidmətlərinin həyata keçirilməsi üzrə xidmətlərinin yüksək səviyyədə təmin edilməsi
2. *Mülkiyyətçilər /Təsisçilər:*
   a. Müəssisənin gəlirinin daima artırılması
   b. Müəssisənin imicinin və reputasiyanın qorunması
   c. Müəssisədə bədbəxt hadisələrin qarşısının alınması , ətraf mühitin mühafizəsi
3. *İşçilər:*
   a. Müəssisədə tətbiq olunmuş İnteqrəedilmiş Menecment Sisteminin davamlı təkmilləşdirilməsi
   b. İş şəraitində sağlamlıq və təhlükəsizliyin təmin edilməsi üçün işlə bağlı zədələnmə və xəstəliklərin qarşısının alınması
   c. Təhlükələrin aradan qaldırılması, sağlamlıq və texniki təhlükəsizlik üzrə risklərin azaldılması
   d. İşçilərin İnteqrəedilmiş Menecment Sisteminin təkmilləşdirilməsi məsələlərində məsləhətləşməsinin və həmin işlərə cəlb olunmasının təmin edilməsi
4. *Müvafiq icra hakimiyyəti orqanları:*
   a. Müəssisənin fəaliyyətinə şamil olunan qanunvericilik və digər tələblərin yerinə yetirilməsi
   b. Ətraf mühitin qorunması, o cümlədən çirklənmənin qarşısının alınması və müəssisənin konteksti nöqtəyi nəzərindən digər konkret öhdəliklərin yerinə yetirilməsi
5. *Cəmiyyət:*
   a. Sosial proqramları və layihələri tətbiq etməklə cəmiyyətin təkmilləşdirilməsinə töhfənin verilməsi.

**İMS üzrə siyasətin əsas prinsipləri aşağıdakılardır:**

1. *Fəaliyyətimizi idarəetmə texnologiyalarının daimi təkmilləşməsi üçün aparıcı vasitələrdən olan İSO 9001:2015 - Keyfiyyət idarəetmə sistemi, İSO 37001:2025 Rüşvət əleyhinə idarəetmə sistemi, Ətraf mühit, sosial və idarəetmə (ESG) prinsipləri və İSO 45001:2018 Əməyin mühafizəsi və Peşə sağlamlığının qorunması üzrə idarəetmə sistemi üzrə beynəlxalq standartının tələblərinə uyğunlaşdırılması və davamlı olaraq təkmilləşdirilməsi;*
2. *Fəaliyyətimizlə bağlı qüvvədə olan qanunverici sənədlərin, hüquqi və texniki-normativ aktların tələblərinə riayyət edilməsi;*
3. *Müəssisənin fəaliyyətinə təsir edə biləcək əhəmiyyətli maraqlı tərəflərin, daxili və xarici faktorların müəyyən edilmləsi;*
4. *Qiymətləndirmə,təlim və konsaltinq fəaliyyətlərinin keyfiyyətinə təsir göstərə biləcək risk və ehtimalların müəyyən edilməsi və nəzarət altına götürülməsi;*
5. *Fəaliyyətimiz nəticəsinə əmələ gələn ekoloji aspektlərin müəyyən edilməsi və nəzarət alıtına alınması;*
6. *Müştərilərimizə göstərilən xidmətin keyfiyyətinin yüksək səviyyədə təmin edilməsi və fasiləsiz olaraq inkişaf etdirilməsi;*
7. *Bütün aidiyyatı dövlət strukturları ilə səmərəli işbirliyi nəticəsində əldə edilmiş zəngin təcrübənin müştərilərimizin məmnunluğuna yönəldilməsi və onların məmnunluğunun səviyyəsinin daim yüksək səviyyədə saxlanılması;*
8. *Əməkdaşlarımızın bilik,bacarıq və təcrübə səviyyəsinin daima artırılması və s.*
9. *Qiymətləndirmə,təlim və məsləhət xidmətlərinin həyata keçirilməsi proseslərinə təsir göstərə biləcək keyfiyyətin idarə olunması,anti-korrupsiya,ətraf mühitin muhfauzəsi və əməyin mühafizəsi sahəsində risklərinin və ehtimalların,eyni zamanda ekoloji aspektlərin müəyyən edilməsi və nəzarət altına götürülməsini təmin etmək;*
10. *Əhəmiyyətli maraqlı tərəflərin tələblərinin və gözləntilərinin ən yüksək səviyyədə yerinə yetirilməsini təmin etmək;*

**“Vecon Consulting” MMC-nin ali rəhbərliyi** İnteqrəedilmiş Menecment Sistemi üzrə siyasətin işçi heyətinin diqqətinə çatdırılması, bütün əməkdaşlar tərəfindən onun tələblərinə əməl edilməsini,təkmilləşdirilməsini və əhəmiyyətli maraqlar üçün əlçatan olmasını təmin edir, eyni zamanda bu siyasətin səmərəliliyi davamlı olaraq nəzarət altında saxlanılır.